


# AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
# BAKI DÖVLƏT UNİVERSİTETİ
## Filologiya fakültəsi
## Tədris-Metodik Şurasının
## 2015- 2016-cı tədris ili üçün
## HESABATI

**Məruzəçi: TMŞ-nin sədri prof. Məhərrəm Məmmədli**






# ÜMUMİ MƏLUMAT

Filologiya fakültəsi universitetin ilk yaranan və ən böyük fakültələrindəndir. Fakültədə **1143** nəfər tələbə bakalavr pilləsində, **70** nəfər isə magistraturada təhsil alır. Tədris prosesi ilə **17** kafedra məşğul olur.Kafedraların elmi-pedaqoji potensialı da yüksəkdir; **327** nəfər müəllim çalışır ki, bunlardan **2-si** AMEA-nın müxbir üzvü **35** nəfəri elmlər doktoru, professor, **87** nəfəri fəlsəfə doktoru, dosent, **139** nəfəri isə fəlsəfə doktoru, baş müəllim və müəllimdir. Fakültənin müəllimləri təkcə filologiya fakültəsində deyil, bütün fakültələrdə ayrı-ayrı fənləri tədris edirlər

# Fakültənin elmi nailiyyətləri

Rus dilçiliyi kafedrasının müdiri, prof. L.Quliyeva universitet üzrə "İlin kafedra müdiri" adına layiq görülmüşdür. Alman və fransız dilləri kafedrasının müdiri, dos. E.Fərəcullayeva Fransanın Akademik Palma ordeni ilə təltif olunmuşdur. Dos. Ü.Nəbiyeva filologiya elmlər doktoru elmi dərəcəsi almış, Gülzar Xanbabayeva və Aytən Hümbətova filologiya üzrə fəlsəfə doktoru dissertasiyası müdafiə etmişlər

**Alman-fransız dilləri kafedrasının müdiri, dosent Elmira Fərəcullayeva Fransız dili və Frankofoniya Həftəsi çərçivəsində təşkil edilən tədbirdə Fransanın Akademik Palma (Kavaler dərəcəsi) ordeni ilə təltif.**









# Tədris-Metodik Şuranın hesabat dövründə fəaliyyətinin istiqamətləri

1. İş planının hazırlanması və Elmi Şurada müzakirəsi
2. Dərs bölgüsünün aparılmasına nəzarət
3. Açıq dərslərin keçirilməsi və müzakirə olunması
4. Dərslik, proqram, dərs vəsaiti, metodik göstəriş və sillabusların hazırlanma- sı, təkmilləşdirilməsi və nəşrinə nəzarət
5. Tədris-Elektron Mərkəzin aşkar etdiyi keyfiyyətsiz dərslərin müzakirəsi
6. İmtahan biletlərinin hazırlanması və yoxlanılması
7. Reydlərin keçirilməsi və nəticələrin müzakirə olunması
8. Dərsə davamiyyətin yoxlanılması və jurnallarda qeydiyyatın düzgün aparıl- masına nəzarət
9. Mühazirə mətnlərinin elektron versiyasının hazırlanmasına və daim təkmil- ləşdirilməsinə nəzarət
10. Gənc müəllimlərə metodik tövsiyələrin verilməsi
11. Pedaqoji təcrübənin təşkilinə və keçirilməsinə nəzarət
12. Sabah qruplarında iş
13. Elmi- tədqiqat işlərinin yerinə yetirilməsinə və müzakirəsinə nəzarət
14. Magistr dissertasiyalarının və buraxılış işlərinin ilkin və yekun müdafiəsinin keçirilməsinə nəzarət
15. İctimai tədbirlərin təşkili və keçirilməsi

# TƏDRİS-METODİKİ ŞURANIN İŞ PLANI

Hər tədris ilinin əvvəlində universitetin mövcud əsasnaməsinə uyğun iş planı hazırlanır, fakültə Elmi Şurasında təsdiq olunduqdan sonra metodşura öz fəaliyyətini həmin plan əsasında qurur. Cari ildə metodşura, kafedralar, kurs işləri, sərbəst işlərlə bağlı əsasnamələr hazırlanmış, fakültəmizə göndərilmişdir. Xüsusilə sərbəst işlərin qəbulu ilə bağlı müxtəlif fikirlər və münasibətlər meydana çıxmışdı. Əsasnamə çaşqınlığa son qoydu. Sərbəst işlərin ballarının dərs jurnallarına yazılması müəllimlərin işini asanlaşdırdı. İl ərzində metodşura universitet rəhbərliyinin, metodşurasının və dekanlığın tövsiyələrini layiqincə yerinə yetirməyə çalışır.

# TƏDRİS-METODİKİ ŞURANIN İŞ PLANI

| Sıra | Görüləcək iєlər | İcra müddəti | İcraçı |
|---|---|---|---|
| 1. | Fakültə elmi-metodik şurasının təєkili və iş planının hazırlanması | sentyabr | M.Məmmədov S.Məhərrəmova |
| 2. | Dərslik, dərs vəsaiti, metodik vəsait və göstəriєlərin, proqramların müzakirə olunması və зapa təqdim edilməsi | il boyu | Єura üzvləri |
| 3. | Ayrı-ayrı müəllimlərin dərslərini dinləmək və tövsiyələr vermək | hər ay | T.Hüseynov M.Məmmədov |
| 4. | Tədris planınm tələblərinə uyğun şəkildə tərtibinə, tədris yükünün məqsədəuyğun bölgüsünə, dərs cədvəllərinin tədris planına uyğun tərtibinə, sillabusların hazırlanmasına nəzarət etmək | sentyabr - fevral | M.Məmmədov X.Abdullayeva |
| 5. | Tədris fənlərinin proqram və metodik göstəriєlərlə təmin edilməsi | il boyu | A.İsmayılova<br>S.Qocayeva |
| 6. | Fakültənin kafedralarında yerinə yetirilən elmi-tədqiqat iєlərinin aktuallığına, planlaşdırılmasına və müzakirəsinə nəzarət etmək | dekabr | M.Məmmədov<br>Ə.Cavadov<br>X.Abdullayeva |
| 7.<br>8. | Nümunəvi açıq dərslər təєkil etmək<br>İmtahan biletlərinin yoxlanılması | Noyabr<br>dek.-may | T.Hacıyev<br>M.Məmmədov |
| 9. | Əyani və texniki vasitələrdən istifadə ilə bağlı tövsiyələrin verilməsi | il boyu | S.Məhərrəmova<br>S.Qocayeva |
| 10. | Yeni təhsil islahatları ilə bağlı müəllimlər arasında maarifləndirmə iєini geniєləndir- mək | il boyu | M.Məmmədov<br>T.Hacıyev |
| 11. | Mühazirə mətnlərinin hazırlanmasına və müzakirəsinə nəzarət etmək | il boyu | S.Məhərrəmova Ə.Cavadov |
| 12. | Pedaqoji və istehsalat təcrübələrinin yekun larının müzakirəsi və fəalların mükafat- sı | sentyabr | M.Məmmədov |
| 13. | Yoxlama və kurs iєlərinin, buraxılış işlərinin, magistr dissertasiyalarının mövzularının aktuallığına, yoxlanmasına və | iyun | M.Məmmədov<br>Ə.Cavadov |

## FAKÜLTƏ METODŞURASININ ÜZVLƏRİ

Şuranın üzvlərindən prof. T.Hüseynov, prof. S.Məhərrəmova açıq dərslərin keçirilməsinə, prof. T.Müzəffəroğlu, dos.Ə.Cavadov və dos. R.Bağırov proqram, dərslik və vəsaitlərin yazılmasına, prof. M.Məmmədov və dos.S.Qocayeva imtahan biletlərinin hazırlanmasına, jurnalların təqvim planlarına uyğun yazılmasına, dos. A.İsmayılova və baş müəllim X.Abdullayeva xarici dillərin tədrisinə və onlara aid metodik işlərin hazırlanmasına nəzarət edirlər. Şuranın katibi müəllim Ş.Əliyevadır.













***Universitet Tədris Metodik Şurasının sədri akademik Vasif Babazadə fakültə Metodşuralarının hesbatlarında rəyasət heyətinin digər üzvləri ilə birlikdə iştirak edir.***





# *Fakültə Metodik Şurasının fəaliyyətindən*








## Filologiya fakültəsində Elmi Şura 05/07/2016

Bakı Dövlət Universiteti Filologiya fakültəsində fakültə Elmi Şurasının iclası keçirilib. **Fakültə dekanı, fil.f.d. Elçin Məmmədov**, fakültə **tədris metodiki şurasının sədri, professor Məhərrəm Məmmədov**, **dekan müavini professor Nizami Xəlilov** yay imtahan nəticələri haqqında çıxış ediblər. Daha sonra kafedra müdirləri və professor – müəllim heyəti Elmi Şurada cari məsələləri müzakirə ediliblər.






# BDU-da Elmi Şuranın bu tədris ili üçün genişləndirilmiş iclası keçirilib
# 11/07/2016





# BDU-da yay imtahan sessiyası ilə əlaqədar "Açıq qapı" günü keçirilib
# 09/06/2016





# DƏRS BÖLGÜSÜ

Bu il dərs bölgüsü obyektiv səbəblərə görə gecikmişdir. Bütün müəllimlərin dərs bölgüsünün yoxlanılması prosesində bəzi müəllimlərin auditoriya saatlarının normadan az ayrılması müəyyən olunmuş, az vaxtda əksər kafedralar da həmin nöqsan aradan qaldırılmışdır. Hər müəllimə on kurs işinin ayrılması vakant saatlar əmələ gətirdiyinə görə onların sayı artrılmışdır. Bununla bağlı bir məsələni diqqətinizə çat dırmaq istəyirəm ki, hər iki **ingilis dili** kafedrasında **68 nəfər saathesabı müəllim** vardır. Bu, tədris prosesində və imtahanların yoxlanmasında çətinliklər yaradır. Bu il həmin kafedralara əlavə ştatlar ayrılmış, istisna hal kimi təcrübəli müəllimlərin saathesabı dərslərinin çoxaldılması yolu ilə problem qismən aradan qaldırılmışdır.

## Magistr dissertasiyalarının və buraxılış işlərinin mövzularının müzakirəsi

Sentyabr ayında buraxılış ışlərinin və magistr dissertasiyalarının mövzuları metodşurada müzakirə edilmişdir. Bəzi mövzuların dəyişdirilməsi ilə bağlı Alman və fransız dilləri kafedrasının müdirinə tövsiyələr verilmişdir. Bu işi il hər həyata keçirdiyimizdən ildən-ilə nöqsanlar azalmaqdadır. Bu il təqdim olunan mövzuların ək səriyyəti aktual mövzulardır. Universitetin elm və innovasiyalar üzrə prorektoru, AMEA-nın müxbir üzvü A.Kazımzadənin buraxılış işlərinin və magistr disserta siyalarının mövzuları, məzmunu və müzakirəsi ilə bağlı məktubunu almışıq. Bu işin məktubdakı tövsiyələrə uyğun yerinə yetirilməsinə çalışırıq.

# DƏRS DİNLƏMƏ

Şuranın üzvləri il ərzində **14 dərs dinləmiş**, sonda müəllimlərə məsləhət vermişlər. Dərs dinləmələrdə digər fakül tələrin metodşuralarının sədrləri də iştirak etmiş, irad və tövsiyələrini bildirmişlər: İ.Hacıyeva (C.Məmmədli, H.Sultanova və N.Mehdiyeva), N.Hacıyeva (prof. M.Çıraqov), L.Əliyeva, S.Cəlilova və N.Həsənovanın ( C.Məmmədli, H.Sultanova, K.Aslan) dərslərində iştirak etmiş, irad və tövsiyələrinin bildirmişlər.



# AÇIQ DƏRSLƏR

Şura açıq dərslərin keçirilməsini və müzakirə olunmasını daim nəzarətdə saxlayır. Açıq dərslər yeni qaydalara uyğun keçilir. Yüzballıq cədvələ əsasən qiymət ləndirilir. Bu il **33 açıq** dərs keçirilmişdir. Bunlardan **17- si yaşı 75- i keçmiş** müəllimlərə aiddir. Dərslərin əksəriyyəti yüksək metodiki səviyyədə aparılmış, mütəxəssislər dərslərin gedişindən razı qalmış, qənaətbəxş qiymətləndirilmişdir. Müəllimlərin metodiki baxımdan təctübəsini, dərsdə tələbələrin fəallığını yoxlamaq üçün açıq dərslərin əksəriyyəti məşğələ dərslərində təşkil edilmişdi. Müəllimlərdən S.Məhərrəmova, R.Quliyeva, Ə.Cavadov, S.Sadıqova, M.Məmmədov, E. Məmmədov, A.Əliyeva, K.Həsənova, M.Abdullayeva ( iki il " İfadəli oxudan praktikum" fənnindən texniki vasitələrin köməyi açıq dərs keçir) və N.Hacıyeva dərsləri müasir tələblərə uyğun şəkildə keçmişdir. Bunlardan M.Abdullayeva, M.Məmmədov və K.Həsənovanın dərslərində texniki vasitələrdən də istifadə olunmuşdur.

# BAKALAVRİAT PİLLƏSİNDƏ AÇIQ DƏRSLƏR VƏ ONLARIN MÜZAKİRƏSİ









# MAGİSTRATURA PİLLƏSİNDƏ AÇIQ DƏRSLƏR VƏ ONLARIN MÜZAKİRƏSİ





# DƏRSLİK, DƏRS VƏSAİTLƏRİ, METODİK İŞLƏR VƏ PROQRAMLAR

Tədris ili ərzində metodşura fakültədə metodik işlərin müzakirəsini və çapını diqqət mərkəzində saxlayır. Fakültədə ixtisaslaşma fənləri proqram və vəsaitlərlə tam təmin olunmuşdur. Bu il şurada **32** (keçən il 17) metodik iş müzakirə olunmuşdur. Bunlardan **22-si** proqram, **8-i** dərslik və dərs vəsaiti**, 2-si** metodik göstərişdir.

# DİLÇİLİYƏ DAİR YENİ NƏŞRLƏR









# YENİ NƏŞR OLUNMUŞ «AZƏRBAYCAN DİLİ VƏ NİTQ MƏDƏNİYYƏTİ» DƏRSLİYİNİN MÜZAKİRƏSİ





# ƏDƏBİYYAT TARİXİNƏ AİD YENİ NƏŞRLƏR









# METODİK GÖSTƏRİŞ VƏ YENİ FƏNN PROQRAMLARI









# HAZIRLIQ FAKÜLTƏSİ

Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası, Azərbaycan dili və Rus dili kafedralarının bəzi müəllimləri Hazırlıq fakültəsində dilimizi və rus dilini həvəslə öyrədirlər. Bu il onların yekun dərsi akt zalında keçirildi Əcnəbi tələbələr az vaxtda dilləri yaxşı öyrənmələrini əyani şəkildə nümayiş etdirdilər. Yeni tədris ilindən başlayaraq İradə Şəmsizadə, Ofelya Piriyeva, Şəlalə Abdullayeva, Məhbubə Qurbanova, Nəzakət Hüseynova, Pərvin Eyvazov ana dilimizi əcnəbi tələbələrə həvəslə öyrədir və onların pedaqoji fəaliyyəti tərifə layiqdir.





## Keyfiyyətsiz dərslərin müzakirəsi

Fəaliyyət dövründə universitetin Tədris-Elektron Mərkəzi ilə sıx əlaqə saxlayırıq. Bu dərs ilində Mərkəzin fakültədə dərslərin gedişi ilə bağlı şikayəti olmamışdır. Lakin **Azərbaycan ədəbiyyatı tarixi kafedrasının müəllimi Sevinc Hüseynovanın Jurnalistika fakültəsində** dərsi tələblərdən kənara çıxdığına görə, Mərkəzin təqdimatı əsasında həmin fakültənin metodşurası ilə birlikdə müzakirə olunmuş, müvafiq qərarlar qəbul edilmişdir.

# İMTAHAN BİLETLƏRİNİN YOXLANMASI

Hər il dekabr və may aylarında şuranın üzvləri kafedralarda imtahan suallarının hazırlanmasına nəzarət edir, imtahan biletlərini suallarla tutuşdururlar. Bu işi Azərbaycan bölməsində M.Məmmədov, S.Qocayeva, A.İsmayılova, rus bölməsində S.Məhərrəmova, R.Bağırov həyata keçirirlər. Nə qədər çalışsaq da, nöqsanlar qalmaqdadır. İmtahanlar ərəfəsində kafedralarının hazırladıqları biletlərldəki nöqsanlar müəyyən olunur və qabaqcadan aradan qaldırılır. Bir məsələni xüsusi qeyd etmək istəyirəm ki, son iki ildə biletlərdə təkrar sualların sayı nəzərdən qaçırılır. Hər hansı sual iki dəfə, istisna hallarda üç dəfə təkrar oluna bilər. Yoxlama zamanı bir sualın 8-10 dəfə təkrarına yol verilir

# REYDLƏRİN KEÇİRİLMƏSİ

Dekan müavini dos. C.Muradovla birlikdə reydlər keçirib jurnalların sillabuslara uyğun yazılmasını, gəlməyənlərin qeydiyyatını yoxlayaraq nöqsanlarla bağlı müəllimlərə tövsiyələr veririk. Bu ilin fevral-mart aylarında dekanlığın və metodşuranın üzvlərindən ibarət komussiya yaradılmış, kafedraların sənədləri yoxlanılmış, az vaxtda nöqsanların aradan qaldırılması üçün onlara tövsiyələr verilmişdir. Yoxlamanın nəticələri fakültə Elmi Şurasında müzakirə edilmuşdir. Akkreditasiya üçün sənədlərin hazırlanması ilə bağlı metodşuranın üzvləri dəfələrlə kafedralarda olmuş, sillabuslarla, işçi tədris planları, fərdi iş planlarının hazırlanmasında müəllimlərə yaxından kömək etmişlər.

# PEDAQOJİ TƏCRÜBƏ

Fakültədə bakalavr pilləsində IV kurs tələbələri isə pedaqoji təcrübə keçirlər. Bu il pedaqoji təcrübəyə nəzarət gücləndirilmiş, təcrübə tələblərə uyğun şəkildə aparılmışdır. Müəllimlər və tələbələr nizam-intizama ciddi riayət etmiş, gündəlik işlər qabaqcadan hazırlanmış plan əsasında qurulmuşdur.






# FAKÜLTƏNİN ELMİ FƏALİYYƏTİ

Kafedralarda və elmi tədqiqat laboratoriyalarında aktual mövzularda tədqiqat işləri aparılır. Fakültə əməkdaşlarından Ə.Rəcəbli, A.Hacıyev, S.Sultanova və b. monoqrafiyaları, S.Abbasova, Ə.Cavadov "**Azərbaycan dili və nitq mədəniyyəti",** B.Hacıyev və Maral Əsədullayevanın **«İngilis dili»,** E.Fərəcullayeva, G.Rəhimova, m.Qurbanova və R.Həbiblinin **"Azərbaycan dili ( əcnəbi tələbələr üçün)",** S.İbrahimovun **«Azərbaycan ədəbiyyatının tədrisi tarixi**» və b. dərslikləri, B.Hacıyev, E.Fərəcullayevanın dərs vəsaitləri çap olunmuşdur. Müəllimlərin müxtəlif elmi məcmuələrdə 300-dən artıq məqaləsi çap olunmuşdur. S.Məhərrəmova, K.İslamzadə və R.Bağırorovun **Thomson Reuther məcmuəsində** məqalələri nəşr olunmuşdur.T.Hüseynovun Ukraynada ( Şevçenkoşünaslıq ensiklopediya- sında 6 məqalə), A.Məmmədovanın Türkiyə və İranda, E. Heydərovanın Tokio, Kembriç, Kanada və Rusiyada, A.Məhərrəmovanın Ukraynada nüfuzlu toplularda məqalələri çap olunmuşdur. C.Nağıyev Ankara şəhərində, Elçin Məmmədov, Z.Şahbazova və Q.Abdullayeva Konya şəhərində beynəlxalq konfransda iştirak etmişlər. A.Abbasovun Moskva şəhərində, S.İbrahimovun Almaniyada, V.Sultanlının Türkiyə, Ukrayna, Misir və Pekində kitabları nəşr edilmişdir. Fakültənin əməkdaşlarından dos.R.Həbibli və P.Eyvazov Türkiyədə Respublikasında Bilkənd Universitetində bir ay kurs keçmiş, müsabiqədə müvəffəqiyyətli çıxışlarına görə fərman və medalla təltif olunmuşlar. İngilis dili kafedralarının 7 nəfər müəllimi Tempus layihəsi çərçivəsində Azərbaycan Dillər Universitetində keçirilən təlimlərdə iştirak ediblər.

Bakı Dövlət Universitetinin **ingilis dili kafedrasının müəllimləri** Tempus layihəsi çərçivəsində Azərbaycan Dillər Universitetində keçirilən **kurikulumla bağlı təlimlərdə iştirak** ediblər. Seminarda universiteti humanitar fakültələr üzrə ingilis dili kafedrasının baş müəllimləri Mənsurə Ağayeva, Zəhra Əhmədova, Fərəh Əliyeva və təbiət elmləri üzrə ingilis dili kafedrasının müəllimləri Nərgiz Əliyeva, Nilufər Mahmudova, Nigar Seyidova, İlkanə Əmirova təmsil edib.





# TƏDBİRLƏR

Hesabat dövründə fakültədə mühüm və maraqlı elmi tədbirlər keçirilmişdir. Ümummilli liderimiz H.Əliyevin anadan olmasının 93 illiyi münasibəti ilə Filologiyanın aktual problemləri mövzusunda, prof. P.Xəlilovun anadan olmasının 90 illik yubileyi, “Dədə Qorqud Kitabı” abidəsinin tədqiqinin 200 illik yubileyi, rus şairi Sergey Yeseninin 110 illik yubileyinə həsr olunmuş “Yeseninin poeziya gecəsi”, “Müasir gənclik və milli-mənəvi dəyərlər”, “Azərbaycan ədəbiyyatında multikulturalizmin təzahürləri” mövzularında konfrans və seminarlar keçirilmişdir. Novruz bayramına həsr olunmuş mədəni tədbir, “Rus poeziyası gecəsi”, viktorina ( Türk xalqları ədəbiyyatı kafedrası) şair N.Həsənzadə ilə görüş maraqla qarşılanmış, müəllim və tələbələrdə xoş təəssürat yaratmışdır. Mərhum professor Yusif Seyidovun elmi-pedaqoji fəaliyyətinə həsr olunmuş seminar, prof. Kamran Əliyevin “Açıq kitab-Dədə Qorqud” kitabının Azərbaycan şifahi xalq ədəbiyyatı kafedrasında müzakirəsi də maraqlı keçmişdir. Fakültədə dos.M. Osmanoğlunun rəhbərliyi ilə “Söz” yaradıcılıq birliyi fəaliyyət göstərir. Birlikdə Ulduz jurnalının baş redaktoru Qulu Ağsəs, prof.A.Dadaşovla, şair Vaqif Bəhmənli, Ədəbiyyat qəzetinin redaktoru Azər Turan ilə görüşlər keçirilmişdir. Görkəmli alim, akademik T.Hacıyevin, prof.Ə.Rəcəblinin 80-illikyubileyləri, I Türkoloji Qurultayın 90- illik yubileyi münasibətilə konfransların keçirilməsi nəzərdə tutulur.

Əməkdar incəsənət xadimi, xalq şair Nəriman Həsənzadə Bakı Dövlət Universitetində olub. Qonağı əvvəlcə universitetin rektoru, akademik Abel Məhərrəmov salamlayıb, onu bu ali təhsil ocağında görməkdən məmnunluğunu ifadə edib. Daha sonra xalq şairi Nəriman Həsənzadə filologiya fakültəsinin müəllim-tələbə heyəti ilə görüşüb.





**Bakı Dövlət Universitetində Qazax xanlığının yaranmasının 550 və müasir qazax yazılı ədəbiyyatının banisi, filosof, böyük ictimai xadim Abay Kunanbayevin 170 illik yubileyi münasibətilə keçirilən beynəlxalq konfrans çərçivəsində Qazaxıstan Respublikasının tanınmış alimləri Filologiya fakültəsində tələbələrə mühazirələr oxuyublar. Tanınmış abayşünas, akademik Qarifulla Yesim və Qazaxıstan Respublikasının Milli Elmlər Akademiyası nəzdindəki M. Auezov adına Ədəbiyyat və İncəsənət İnstitunun direktoru, filologiya elmləri doktoru, professor Şakir İbrayev filologiya fakültəsinin tələbələri qarşısında Abay Kunanbayevin yaradıcılığı və Qazax ədəbiyyatşünaslığının aktual problemləri mövzusunda məruzə ilə çıxış ediblər**





BDU-nun Filologiya fakültəsində Azərbaycan dilçiliyi, Azərbaycan dili, Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası, Ümumi dilçilik kafedralarının və "Azərbaycan dilinin tətbiqi məsələləri" ETL-in əməkdaşlarının iştirakı ilə **“Beynəlxaq Ana dili günü”nə həsr olunmuş Dəyirmi masa** təşkil olunub.





# Azərbaycan şifahi xalq ədəbiyyatı kafedrasının təşkilatçılığı ilə Su və Od çərşənbələri qeyd olunub









# BDU-nun Abay mərkəzində " Nauırız meyramı" qeyd olunub





# BDU-da “Yeseninin poeziyası gecəsi” keçirilib





Bakı Dövlət Universitetinin Filologiya fakültəsinin nəzdində fəaliyyət göstərən “Söz” Yaradıcılıq Birliyinin təşkilatçılığı ilə “Ədəbiyyat” qəzetinin baş redaktoru və yaradıcı heyəti müəllim və tələbələrlə görüşüb.





**Ankarada dünya şöhrətli türkoloq akademik Tofiq Hacıyevin xatirəsi yad edilib. Alimin həyat və yaradıcılığına həsr olunmuş kitab nəşr olunub.**






# FAKÜLTƏNİN GƏNC ƏMƏKDAŞLARI QAFQAZ UNİVERSİTETİNDƏ BEYNƏLXALQ ELMİ KONFRANSDA





# Əməkdaşlarımız Bakı Slavyan Universitetində «ULU ÖNDƏR HEYDƏR ƏLİYEV İRSİNDƏ MULTIKULTURAL VƏ TOLERANT DƏYƏRLƏR» mövzusunda Beynəlxalq Elmi Konfransda iştirak etmişdir.

Konfransda Klassik Azərbaycan ədəbiyyatı kafedrasının professoru Yeganə İsmayılova, Azərbaycan şifahi xalq ədəbiyyatı kafedrasının əməkdaşı Gülnar Axundova , “Türkoloji araşdırmalar” ETL-nin kiçik elmi işçisi Pərvin Eyvazov iştirak etmişdir.






# Filologiya fakültəsində “ Heydər Əliyev və folklor ” mövzusunda elmi seminar keçirilib





# BDU-da “Rus poeziyası gecəsi” adlı tədbir

Bakı Dövlət Universiteti Rus mərkəzində “Rus poeziyası gecəsi” adlı tədbir keçirilib. Tədbiri təbiət fakültələri üzrə Rus dili kafedrasının müəllimləri və BDU-nun Rus mərkəzinin rəhbəri Arzu Məmmədova təşkil edib.





# Filologiya fakültəsində XIX Respublika elmi konfransı

Bakı Dövlət Universitetinin Filologiya fakültəsində ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş "Filologiyanın aktual problemləri" mövzusunda XIX Respublika elmi konfransı keçirilib.





# BDU-nun Abay Mərkəzində “Ölkə tarixində şəxsiyyətlərin rolu” adlı tədbir keçirilib





# Professor Nizami Tağısoyun "Qaraqalpaq ədəbiyyatı" kitabının müzakirəsi

Bakı Dövlət Universiteti Filologiya fakültəsi Azərbaycan Şifahi xalq ədəbiyyatı kafedrasında professor Nizami Tağısoyun "Qaraqalpaq ədəbiyyatı" kitabının müzakirəsi keçirilib.





# Türkiyənin Xalq Mədəniyyəti Araşdırmaları Qurumunun sədri Filologiya fakültəsində

Türkiyənin Xalq Mədəniyyəti Araşdırmaları Qurumunun sədri professor İrfan Nəsrəddinoğlu Azərbaycan şifahi xalq ədəbiyyatı kafedrasının qonağı olub





**TƏHSİL İSLAHATLARI YENİ MƏRHƏLƏDƏ**

Bu il boloniya təhsil islahatının həyata keçirilməsimdə dönüş ilidir. Artıq I-III kurslarda fənlər yeni tədris planları əsasında aparılır. Həftəlik dərs saatları 24 saata endirilmiş, jurnallar yeni qaydada yazılır. Buna görə də müəllimlər də fəaliy yətində dönüş etməli, fənləri yüksək metodiki səviyyədə tədris etməyə çalışmalıdırlar. Bununla bağlı universitetimizdə yaradılmış kulikum kurslarında fakültədən 6 müəllim iştirak etmişdir. Həmin müəllimlər VII semestrdə "Kulikumun əsasları" fənnini tədris edirlər.

# FAKÜLTƏNİN BEYNƏLXALQ ƏLAQƏLƏRİ

Fakültənin beynəlxalq əlaqələri ildən-ilə genişlənir. Bu il qazaxıstanlı alimlər filologiya fakültəsində ustad dərs aparmış, qazaxıstanlı magistrlər türkologiya kafedrasında kursda olmuş, fakültənin tələbələri ilə görüş keçir mişlər. Əməkdaşlarımız və tələbələrimiz Türkiyənin Bilkənd Universitetində ezamiyyətdə olmuşlar. Universitet daxili tədbirlərdə fakültənin əməkdaşları  fəal iştirak edirlər.





# ƏMƏKDAŞLARIMIZ VƏ TƏLƏBƏLƏRİMİZ TÜRKİYƏNİN İ.D. BİLKƏND UNİVERSİTETİNDƏ










# TƏLƏBƏLƏRİN ELMİ-MƏDƏNİ TƏDBİRLƏRDƏ UĞURLARI









# «SABAH» QRUPLARI

Fakültəmizdə iki ildir ki, Sabah qrupu yaradılmışdır. Fakültəmizdə, Jurnalistika və Kitabxanaçılıq-informasiya fakültələrində filoloji fənləri tədris etmək üçün mütəxəssis, demək olar ki, yoxdur. Bu istiqamətdə də ciddi iş aparmalıyıq.



# “SABAH” QRUPUNUN TƏLƏBƏLƏRİ QAFQAZ UNİVERSİTETİNDƏ BEYNƏLXALQ ELMİ KONFRANSDA



# Bakalavr üzrə fənn proqramlarının siyahısı

| № | Kafedra (kafedra müdiri) | İmza | Kafedranın illik dərs yükü | İxtisasların sayı | Fənlərin sayı | | | Dərsliklərin sayı | | | Dərs vəsaitlərinin sayı | | | Proqramların sayı | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | az | rus | ing | az | rus | ing | az | rus | ing | az | rus | ing |
| 61 | Azərbaycan dilçiliyi (prof. Abdullayeva S.) | | 9367,25 | 3 | 8 | - | - | 5 | - | - | 11 | - | - | 8 | - | - |
| 62 | Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası (prof. Əsgərov H.) | | 8138,75 | 1 | 6 | - | - | 3 | - | - | 1 | - | - | 5 | - | - |
| 63 | Klassik Azərbaycan ədəbiyyatı (prof. Paşayeva N.) | | 5402 | 4 | 10 | - | - | 6 | - | - | 6 | - | - | 10 | - | - |
| 64 | Türkologiya | | 5759.75 | 2 | 11 | 1 | - | 3 | - | - | 4 | - | - | 11 | 1 | - |
| 65 | Azərbaycan şifahi xalq ədəbiyyatı (prof. Orucova S.) | | 3211,5 | 2 | 2 | 1 | - | 1 | - | - | 3 | - | - | 2 | 1 | - |
| 66 | Rus ədəbiyyatı tarixi (prof. Hacıyev A.) | | 4125 | 2 | - | 16 | - | 2 | - | - | - | 15 | - | - | 16 | - |
| 67 | Rus dilçiliyi (prof. Quliyeva L.) | | 5012 | 2 | - | 22 | - | - | 10 | - | - | 20 | - | - | 22 | - |
| 68 | Müasir Azərbaycan ədəbiyyatı (prof.HüseynovT.) | | 5079 | 5 | 5 | - | 1 | 2 | - | - | 7 | - | - | 5 | - | - |
| 69 | Azərbaycan dili (dos. Abbasova S.) | | 8623,25 | 17 | 2 | - | - | 1 | - | - | 1 | - | - | 2 | 1 | - |

# Magistratura üzrə fənn proqramlarının siyahısı

| № | Kafedra (kafedra müdiri) | İmza | Kafedranın illik dərs yükü | İxtisaslaşmaların sayı | Fənlərin sayı | | | Dərsliklərin sayı | | | Dərs vəsaitlərinin sayı | | | Proqramların sayı | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | az | rus | ing | az | rus | ing | az | rus | ing | az | rus | ing |
| 61 | Azərbaycan dilçiliyi (prof. Abdullayeva S.) | | 9367,25 | 1 | 10 | - | - | - | - | - | 8 | - | - | 10 | - | - |
| 62 | Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası (prof. Əsgərov H.) | | 8138,75 | 1 | 10 | - | - | - | - | - | 3 | - | - | 10 | - | - |
| 63 | Klassik Azərbaycan ədəbiyyatı (prof. Paşayeva N.) | | 5402 | 3 | 15 | - | - | 2 | - | - | 2 | - | - | 15 | - | - |
| 64 | Türkologiya | | 5759.75 | 2 | 11 | - | - | 1 | - | - | 4 | - | - | 11 | - | - |
| 65 | Azərbaycan şifahi xalq ədəbiyyatı (prof. Orucova S.) | | 3211,5 | 1 | 14 | - | - | - | - | - | 6 | - | - | 14 | - | - |
| 66 | Rus ədəbiyyatı tarixi (prof. Hacıyev A.) | | 4125 | 2 | - | 10 | - | - | - | - | - | 3 | - | - | 10 | - |
| 67 | Rus dilçiliyi (prof. Quliyeva L.) | | 5012 | 1 | - | 13 | - | - | - | - | - | 10 | - | - | 13 | - |
| 68 | Müasir Azərbaycan ədəbiyyatı (prof.HüseynovT.) | | 5079 | 4 | 14 | - | - | - | - | - | 7 | - | - | 14 | - | - |

# TƏKLİFLƏR

1) Fakültənin auditoriya fondunun genişləndirilməsi
2)Tərcümə mərkəzinin yaradılması
3) Roman və german dillərinə aid ixtisas kafedrasının yaradılması
4) Auditoriyalarda texniki vasitələrin quraşdırılması

# DİQQƏTİNİZƏ GÖRƏ TƏŞƏKKÜR EDİRƏM